# TARİXŞÜNASLIQ

https://doi.org/10.59849/2410-5600.2025.2.98
UOT: 94

**Firuzə Həmidova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç., 26*
*e-mail:* firuzehemidova6@gmail.com

## TARİXİMİZDƏ İZ QOYANLARDAN - MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

**Xülasə**

Məhəmməd Əmin Rəsulzadə şəxsiyyəti Azərbaycanın müstəqillik tarixinin şanlı səhifələrində nə qədər aydın görünürsə, bu dahi insanın milli demokratik mətbuatımızın inkişafında xidmətləri bir o qədər əhəmiyyətli yer tutur. Görkəmli ictimai-siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri olan M.Ə.Rəsulzadə xalqımızın çoxəsrlik müstəqillik idealının gerçəkləşməsində, milli dövlətçiliyin dirçəldilməsində, istiqlal ideyalarının yayılmasında önəmli rol oynamışdır. Onun bütün fəaliyyəti doğma vətəninə, millətinə və xalqına təmənnasız xidmət timsalıdır. M.Ə.Rəsulzadə yalnız öz millətinin azadlığı və müstəqilliyi uğrunda çarpışmaları ilə deyil, həm də yaratdığı tarixi, fəlsəfi, elmi, ədəbi əsərləri, irəli sürdüyü orijinal ideyaları ilə tariximizin ən böyük şəxsiyyətlərindəndir.

Tarix zaman-zaman şəxsiyyətlər yetişdirir. M.Ə.Rəsulzadə Azərbaycan xalqının son iki əsrdə yetişdirdiyi tarixi şəxsiyyətlərdəndir. O, Azərbaycan elmi, mədəniyyəti, siyasi və ictimai-pedaqoji fikri tarixində ən layiqli yerlərdən birini tutmuşdur.

M.Ə.Rəsulzadə xalqımızın, vətənimizin yolunda çox işlər görmüş bir şəxsiyyətdir. Zaman-zaman torpağımız igidlərimizin qanı ilə suvarılsa da, ruhumuzda olan azadlıq eşqini düşmən məhv edə bilməyib. Bu gün Azərbaycan Demokratik Respublikasının əsl milli tarixi bayram kimi təntənəli şəkildə qeyd olunması da məhz bu əzmin və azadlıq idealından dönməzliyin nəticəsidir. İstiqlal günümüz 28 mayın birinci ildönümü 1919-cu ildə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunub.

Elə şəxsiyyətlər var ki, illər, əsrlər keçsə də unuldulmur. Çünki onlar bu dünyada cismani olmasalar da, mənən həmişə yaşayırlar. Onları yaşadan yaşatdıqları ülvi dəyərlər, daim yardımsevər olmaları, təhsilə, mədəniyyətə, mənəviyyata göstərdikləri misilsiz xidmətəridir.

***Açar sözlər:*** *Məhəmməd Əmin Rəsulzadə, Azərbaycan tarixi, Azərbaycan Xalq Cümhuriyyəti, yaradıcılıq yolu, sosial-siyasi və fəlsəfi görüşləri*

**Giriş**

*XX əsrdə Azərbaycan tarixinə, xüsusilə 1918-1920-ci illər arasında mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövrünə böyük maraq var idi. Bütün Şərq dünyasında və Türk dünyasında ilk demokratik Respublikasını quran Azərbaycan xalqının bu şərəfli tarixini araşdırmaq, şübhəsiz ki, əhəmiyyətli idi. Bu dövrün əsas mahiyyəti ondan ibarət idi ki, milli şüurun formalaşmasında, bu şüurun daşıyıcıları olan, güclü məntiqə, dərin savada və sarsılmaz iradəyə sahib ziyalılar yetişdirməkdi. Azərbaycanın zəngin ictimai fikir xəzinəsinə öz dəyərli töhfəsini vermiş görkəmli şəxsiyyətlərdən biri M.Ə.Rəsulzadə olmuşdur. Azərbaycan istiqlal mübarizəsinin ideoloji və aparıcı şəxsiyyəti kimi M.Ə.Rəsulzadə milli dövlət quruculuğunda yaxından iştirak etmiş, xalqı üçün mühüm*

*əhəmiyyət kəsb edən bu qlobal, tarixi hərəkatın başında durmuş və gələcək nəsillərə böyük bir siyasi məktəb təcrübəsi qoymuşdur. Xalq və vətən sevgisi ilə, milli tərəqqi, haqq və ədalət istəyi ilə yaşayaraq istibdad və istismara, zülm və əsarətə, cəhalət və mövhumata qarşı çıxanların yolunda M.Ə.Rəsulzadənin həyat və yaradıcılığı bir fəzilət məktəbidir ki, hələ çox-çox nəsillər bu məktəbdən bəhrələnəcəkdir. Cümhuriyyət bayrağının yenidən qaldırıldığı zaman "Bir kərə yüksələn bayraq bir daha enməz" sözlərinin müəllifi M.Ə.Rəsulzadə milli-demokratik hərəkatın ideya rəmzinə çevrildi. Haqqında məqalələr, kitablar yazıldı, mühacir ədəbiyyatın M.Ə.Rəsulzadə barəsində yazıları təkrar dərc edildi. Rəsulzadənin pulisist irsi ayrı-ayrı kitabları geniş tirajla Azərbaycan cəmiyyətinə çatdırıldı.*

XX yüzilliyin birinci rübündə mürəkkəb və rəngarəng ictimai-siyasi həyat yaşayan M.Ə.Rəsulzadə çox gənc yaşlarında siyasi həyata qoşulmuşdur, ətrafında baş verənlərə, cəmiyyətin qüsurlarına, Qafqaz müsəlmanlarının taleyinə biganə qalmamışdır. O, inanırdı ki, müsəlmanlar maarifçilik və xeyriyyəçiliklə tərəqqiyə nail olacaqlar. 1905-ci ildə "Hümmət" qəzetində 21 yaşlı Rəsulzadə Azərbaycan gəncliyinin siyasi mənsubiyyət mənzərisinin təsnifatını vermişdir: "biz cavanların biri millətpərəst, o biri demokrat, üçüncüsü əqidəpərəst, dördüncüsü cədidpərəst olub da, bu cür dəstə-dəstə olmaqda, hərəmiz özünə məxsus bir yol götürüb, müəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf olluq. Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə, birləşməli, öz fikir və fellərimizdən bir-birimizi hali etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yara məslək üzrə olub, müttəhidül-qövl vəl fel iş görək". Həmin bu məqaləsini Rəsulzadə 1917-ci il iyulun 5-də "Açıq söz" qəzetində təkrar nəşr etdirdi [ 1, s.86].

M.Ə.Rəsulzadənin "dirilik" və "milli dirilik" ifadələri o dövrdə millətin oyanmasında, milli şüurun formalaşmasında, öz vəzifəsini dərk etməsində böyük rol oynamışdır. Yaşamaq yeyib içmək, dirilik deyil. Bütün canlılar yaşayırlar. Dünyanı o adamlar sevirlər ki, qarşılarına böyük və şərəfli məqsədlər qoyan, bu məqsədləri həyata keçirmək üçün yaşamaq istəyən, maneələri dəf etmək üçün güclü və qətiyyətli olmağa çalışırlar. Əgər millətin üzvləri bu məqsədə xidmət edirlərsə, deməli, milli dirilik mövcuddur.

Məhəmməd Əmin Rəsulzadə, 1914-cü ildə Bakıda çıxan "Dirilik" jurnalında "Milli dirilik" başlıqlı yeddi silsilə məqalə nəşr etdirmişdi. Həmin məqalələrdə milliyyəti təşkil edən amillər çox geniş və sadə bir dildə təhlil edilmiş, bəzi yalnış müddəalara açıqlıq gətirilmişdir. Milliyyət məsələsinə M.Ə.Rəsulzadə, Şeyx Cəmaləddin Əfqani kimi islamiyyətin, müsəlmanlığın, milliyətin deyil, ümmətçilik ifadə etdiyini, milliyyətin isə din üzərində deyil, dil və kültür üzərində qurulduğunu göstərir [3, s.44].

Böyük tarixi keçmişi, dili, dini, adət-ənənəsi, ədəbiyyatı, mədəniyyəti, fəlsəfəsi olan geniş coğrafi ərazidə məşkunlaşan, bəşər mədəniyyəti xəzinəsinə qiymətli incilər bəxş edən bir xalqın adsız qalması, qondarma adlarla xatırlanması, gah "tatar", gah da "persian" adlandırılması, sözün həqiqi mənasında təhqir idi. Ona görə də "türçülük", "azərbaycançılıq" ideyasının rəhbərləri bu millətin milli süurunu oyatmaq,onların kim olduqlarını özlərinə tanıtmaq, haqlarını tələb etmək, hüquqlarını müdafiə etmək üçün qorxmadan meydana atılır, yaranmış şəraitdən mümkün olduqca səmərəli etməyə çalışırdılar [3, s.47].

M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk cümhurbaşqanı olaraq öz vəzifəsini layiqli şəkildə yerinə yetirmiş, onun müstəqil varlığı və əbədiliyi üçün siyasi-praktiki, ideoloji-nəzəri baxımdan böyük işlər görmüşdür. Bu kimi fəaliyyətini Cümhuriyyətin süqutundan sonra Türkiyə, Fransa, Almaniya, Polşa və digər mühacir həyatı sürən zaman davam etdirən M.Ə.Rəsulzadə onlarla kitablar, yüzlərlə məqalələrin müəllifi kimi fəlsəfə, sosiologiya, tarix, politologiya, ədəbiyyat və digər sahələrə ciddi töhfələr vermişdi [2, 8].

M.Ə.Rəsulzadənin sürgündə olduğu dövrdə təkcə Azərbaycan deyil, bəşəriyyət qarşısında gördüyü ən böyük xidmətlərdən biri sosializm cərəyanına uyğun olaraq milli həmrəylik tərbiyəsinin əsasını qoyması olmuşdur. Eyni zamanda o, belə bir dövrdə azərbaycançılığın tədrisi ilə bağlı ciddi

elmi-fəlsəfi araşdırmalar aparmış, onu tam və bütöv etmişdir. Mühacirət dövründə onun türkçülük, yeni turançılıqla da bağlı dəyərli fəlsəfi mülahizələri olmuşdur.

M.Ə.Rəsulzadə üçün ən önəmli əzilən və müstəmləkə altında yaşamağa məhkum edilən müsəlmanların, türklərin insani azadlığı və milli istiqlalı idi. Bu yolda da tamamilə olmasa da, xeyli dərəcədə onun sosial-demokratlarla yolları kəsişirdi. Bizcə, bu üst-üstə düşən məqamlar hətta, M.Ə.Rəsulzadənin sosial-demokratizmdə demokratizmə və ordan milli demokratizmə keçidin baş verməsi çarlıq mühitindən çıxaraq Tehranda və İstanbulda fərqli mühitlərə daxil olması gətirib çıxarmışdı. M.Ə.Rəsulzadə Tehran və İstanbul mühitlərində isə bunu demokratik və milli demokratik bir qəlblə davam etdirməyi münasib görmüşdü [2, s.9].

Beləliklə, M.Ə.Rəsulzadənin milli həmrəylik təliminin əsil mahiyyətini milli sosial dövlət təşkil etmişdir. Onun milli sosial dövlət konsepsiyasında milli məsələ ilə sosial məsələ arasında uzlaşdırıcı nöqtələr kifayət qədərdir. Məsələn, milli məsələ dedikdə, milliyyətə və milli istiqlala əsaslanan milli dil, milli ədəbiyyat, milli əxlaq, milli mədəniyyət nəzərdə tutulur. Burada milliyətin başlıca hədəfləri, onun həyata keçirilmə yolları ön plandadır. Deməli, ilk növbədə milli məsələ öz həllini tapmalıdır ki, sosial məsələyə keçid mövcud olsun. Başqa sözlə milli məsələnin öz həllini tapmadan yalnız sosial məsələnin həllinə çalışmaq doğru deyildir. Bu baxımdan hal-hazırda olduğu kimi, o zaman da milli məsələ sosial məsələdən bir addım öndə olmuşdur.

Xüsusilə, M.Ə.Rəsulzadənin milliyyət və millət məsələsini təbii qanunauyğunluqlardan irəli gələn bir şəkildə bir-birindən fərqləndirməyə çalışması, milliyyət dedikdə Azərbaycan türklərini, millət dedikdə Türk millətini ifadə etməsi təsadüfü olmamışdır. Bizim burada ifadə etdiyimiz təbii qanunauyğunluq dünyada böyük bir Türk millətinin və onun milliyyət olaraq ayrı-ayrı qollarınının olmasını ortaya qoyur. Azərbaycan türkləri də Türk millətinin içindəki bir milliyyəti – Azərbaycan türklüyünü ifadə etməkdədir.

1918-ci ilin 28 mayında qurulan yeni bir Türk Cümhuriyyətinə "Azərbaycan" adının verilməsi səbəbləri, "azərbaycançılıq" milli ideyasının mahiyyəti və digər önəmli problemlər milli fəlsəfi yöndən dərin şəkildə tədqiq edilmişdir. Bizcə, M.Ə.Rəsulzadənin azərbaycançılıq təliminin əsasını qoyması və onun dövlətçiliyin əsas ideyasına çevrilməsi təsadüfi olmamışdır. Burada əsas məqsəd bir tərəfdən Azərbaycan Cümhuriyyəti adı altındakı türk və qeyri-türk bütün vətəndaşları birləşdirmək, digər tərəfdən isə Azərbaycan türklərini yalnız Azərbaycanın quzeyi ilə məhdudlaşdırmayıb, Azərbaycanın güneyindəki soydaşlarımızla bağlamaq olmuşdu. Bu isə o deməkdir ki, M.Ə.Rəsulzadənin azərbaycançılıq təlimi yalnız milli demokratik mahiyyət daşımaqla kifayətlənməmiş o, özündə bütöv Azərbaycan ideyasını daşımışdır. Əslində bununla Rəsulzadə Qacarlar və Rusiya arasındakı 1828-ci ildə Türkmənçay andlaşdırılmasından sonra şeirlərində, məqalələrində ortaya çıxan "Bütöv Azərbaycan" məfkurəsini sistemləşdirərək siyasi bir ideyaya çevirə bilmişdir.

M.Ə.Rəsulzadə yeni dövrdə azərbaycançılıq təlimi və "Bütöv Azərbaycan" ideyasının müəllifidir. Onun azərbaycançılıq təlimi əsasında bu gün milyonlarla azərbaycanlı yalnız vahid dövlət ətrafında bir araya gəlməklə kifayətlənməmiş, həm də onu böyük bir dövlətə çevirmək yolunda mücadiləyə başlamışlar. M.Ə.Rəsulzadənin biz azərbaycanlılara, Azərbaycan türklərinə miras qoyduğu azərbaycançılıq təlimi və "Bütöv Azərbaycan məfkurəsi" isə hər gün əhəmiyyətini daha çox büruzə verməkdədir.

Türk Dövlətləri Təşkilatının meydana çıxması, Türk birliyinin meydana çıxması, Türk birliyinin rəsmi bir formaya düşməsi yolunda çox mühüm addımdır. Əslində vaxtilə M.Ə.Rəsulzadənin hədəfləri də məhz müstəqil Türk dövlətlərinin belə bir mahiyyətdə birlik qurması və dünyada əsas güclərdən biri olması idi. Yalnız belə bir formada həm Türk dövlətlərinin hər biri ayrı-ayrılıqda öz müstəqil siyasətlərini yürüdə bilmək imkanlarını özündə saxlayır, həm Türk birliyi çərçivəsində birgə mühüm addımlar atmağa malik olurlar.

Mühacirət dövründə qafqazçılıq, Qafqaz Konfederasiyası ideyasına ən çox sadiq qalan Azərbaycan Türk mütəfəkkirləri, siyasi liderləri arasında M.Ə.Rəsulzadə fərqlənmişdir. O, bir çox əsərlərində, o cümlədən "Qafqaz türkləri", "Azərbaycan şairi Nizami" və digər kitablarında, məqalələrində qafqazçılığı, Qafqaz Konfederasiyası ideyasını izah etməyə çalışmışdır. Rəsulzadəyə

görə Türkiyə ilə Rusiya arasında Qafqaz Konfederativ dövlətinin yaranması bir çox problemlərin də sonunu gətirməli idi. Belə ki, Qafqaz Konfederativ dövlətində iki xristian və bir müsəlman dövlətinin yer alması həm Türkiyənin, həm də Rusiyanın maraqlarına uyğun olmaqla yanaşı, hər üç dövlətin öz aralarında da bir çox ərazi-mədəni problemlərinin həll olunması demək idi [2, s.21-22].

**Nəticə**

*M.Ə.Rəsulzadənin 1903-cü ildən 1955-ci ilədək olan həyat və yaradıcılığına, sosial-siyasi, sosial-fəlsəfi görüşlərinə, milli həmrəylik və azərbaycançılıq təlimlərinə diqqətlə, obyektiv şəkildə yanaşıldıqda, onu nəinki Azərbaycan, heç Türk dünyası çərçivəsində də məhdudlaşdırmağın doğru olmadığını görə bilərik. M.Ə.Rəsulzadə birbaşa fəlsəfənin başlıca problemləri (varlıq, materiya, idrak, dialektika və s.) ilə məşğul olmasa da, bu sahələrə aid özəl bir əsər yazmasa da, ancaq onun bütün sosial-fəlsəfi, ictimai-siyasi görüşləri, sosial-demokratiya, liberalizm və milli həmrəylik təlimi ilə dərindən tanışlıq, bizə demeyə əsas verir ki, o, böyük müdrik, sosioloq, politoloq və filosof-mütəfəkkirdir.*

**Ədəbiyyat siyahısı:**

1. I beynəlxalq Rəsulzadə qiraətləri. Məhəmməd Əmin Rəsulzadənin irsi müstəqillik, demokratiya və dövlətçilik dəyərləri sistemində: [toplu] / nəşrə hazırlayanı və red. S. Rüstəmova-Tohidi ; [rəssam: R. Rəsulzadə, R. Gülməmmədli ; dizayner Ə. Zaliyev] ; "Rəsulzadə ev-muzeyi" İctimai Qrupu. - Bakı: [Təhsil], 2022. – S. 86.
2. Ələkbərli F. Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri: milli həmrəylik və Azərbaycançılıq : [monoqrafiya] / F. Ələkbərli ; elmi red. M. Süleymanlı ; [üz qabığının dizayneri K. İbrahimov]. - Bakı: Elm və Təhsil, 2022. – S. 8; 9; 21-22.
3. Ağayev M. Məhəmməd Əmin Rəsulzadə : ictimai-siyasi və fəlsəfi görüşləri /M. Ağayev ; elmi red. Ə. Abbasov ; rəyçilər Ə. Tağıyev, A. Şükürov ; AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. - Bakı: Nurlan, 2006. – S. 44; 47.

**Firuza Hamidova**

**Of those who left their mark on our history**

***Summary***

The more clearly the personality of Mammadam Rasulzade appears in the glorious pages of Azerbaijan's independence history, the more important is the services of this genius in the development of our national democratic press. Muhammad Amin Rasulzadeh, a prominent socio-political and statesman, one of the founders of the Azerbaijan Democratic Republic, played an important role in the realization of the centuries-old ideal of independence of our people, in the revival of national statehood, and in spreading the ideas of independence. All his activities are a symbol of selfless service to his homeland, nation and people. M.A. Rasulzade is one of the greatest personalities of our history not only with his battles for the freedom and independence of his nation, but also with the original ideas put forward by his historical, philosophical, scientific and literary works.
History produces personalities from time to time. M.A. Rasulzadeh is one of the historical figures cultivated by the Azerbaijani people in the last two centuries. He occupied one of the most worthy places in the history of scientific, cultural, political and social-pedagogical thought of Azerbaijan.
M.A. Rasulzadeh is a person who has done a lot for our nation and our country. From time to time, our land was watered with the blood of our heroes, but the love of freedom in our soulshas not

been destroyed. Today, the celebration of the true national historical holiday of the Azerbaijan Democratic Republic is the result of this determination and unwavering commitment to the ideal of freedom. The first anniversary of our Independence Day, May 28, was celebrated in 1919 with great solemnity and enthusiasm.

There are personalities who are not born even after years and centuries. Because they always live in me, if not physically in this world. The sublime values that keep them alive are their constant helpfulness, unparalleled service to education, culture, and spirituality.

***Keywords:*** *Mahammad Amin Rasulzade, history of Azerbaijan, Azerbaijan Democratic Republic, creative way, socio-political and philosophical views.*

*Filologiya üzrə fəlsəfə doktoru* ***Samirə Əliyeva***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*